

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 49 (21.710)

10 mart 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 9 mart tarixli Sərəncamı ilə Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə bir qrup şəxsə Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Fəxri ad alanlar arasında Naxçıvan Muxtar Respublikasının mədəniyyət işçiləri də vardır.

**Seyidov Tofiq Həbib oğlu**

**Sultanov Neymət İslam oğlu**

“Əməkdar artist” fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvan şəhərinin Əziz Əliyev prospekti yenidən qurulub





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 18 noyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planına əsasən Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yenidənqurma işləri aparılmış, yeni istirahət parkı salınmış və kafe fəaliyyətə başlamışdır.

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov parkın və kafenin açılışını bildirən lenti kəsmiş, həyata keçirilən tikinti işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Əziz Əliyev prospektindəki avtomobil yolunun hərəkət hissəsi genişləndirilmiş, yola yeni asfalt örtük verilmiş, ərazidə istirahət parkı salınaraq abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Parkda 2 fəvvarə tikilmiş, müasir işıqlandırma sistemi quraşdırılmış, oturacaqlar qoyulmuş, yeni kafe fəaliyyətə başlamışdır. Kafedə 6 nəfər işlə təmin olunmuşdur.

Yenidənqurma işləri ilə əlaqədar evləri plana düşən iki vətəndaşa yeni fərdi ev tikilmişdir.

Ali Məclisin Sədri kafedə yaradılan şəraitlə tanış olmuş, yerli məhsullardan istifadə olunması və keyfiyyətli xidmət göstərilməsi ilə bağlı tapşırıqlar vermişdir.

## Naxçıvan şəhərində yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır






Muxtar respublikada əlverişli biznes və investisiya mühitinin yaradılması özəl sektorun inkişafı üçün geniş imkanlar açmışdır. Hər il muxtar respublikada yeni istehsal və xidmət sahələri yaradılır, əhalinin məşğulluğu təmin olunur.

Martın 8-də Naxçıvan şəhərinin Əziz Əliyev prospektində “Danyeri” istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Müəssisənin əməkdaşı Nihad Dadaşov çıxış edərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Qeyri-məşğul əhalinin işlə təminatı diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, hər il Naxçıvanda müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət sahələri yaradılır, minlərlə insan işlə təmin olunur. Bu gün istifadəyə verilən “Danyeri” istehsal və xidmət sahəsi də sahibkarlığın inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Nihad Dadaşov yeni işlə təmin olunanlar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yeni parkın



və xidmət sahələrinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, bu işdə əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Azərbaycan inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Bu gün ölkəmizdə bütün sahələr inkişaf etdirilir. Çünki ümummilli liderimiz Heydər Əliyevin siyasi xətti ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir, dövlət öz vətəndaşına qayğı göstərir, ölkəmizdə sabitlik və dövlət-xalq birliyi vardır.

Ali Məclisin Sədri demişdir: Bu gün istifadəyə verilən yeni parkın və xidmət sahəsinin yerləşdiyi ərazi vaxtilə Naxçıvan şəhərinin yararsız yerlərindən biri idi. Lakin aparılan quruculuq işlərindən sonra ərazi bu gün Naxçıvan şəhərinin ən abad küçələrindən birinə çevrilmişdir. Ölkəmizdə sahibkarlar üçün yaradılan şərait və göstərilən dəstək yeni xidmət və istehsal sahələrinin yaradılmasına imkan verir. Müəssisədə həm məhsul istehsal olunur, həm də əhaliyə iaşə və ticarət xidməti göstərilir. Bu işlərin həyata keçirilməsi bir tərəfdən əhalinin asudə vaxtının səmərəli təşkili və turizmin inkişafına xidmət edirsə, digər tərəfdən isə yeni iş yerlərinin açılmasına və gənclərin məşğulluğunun təmin olunmasına hesablanıb. Ona görə də işçilər üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməli, yaradılan şəraitdən səmərəli istifadə etməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, istehsal olunan və satışa çıxarılan məhsulların keyfiyyəti diqqətdə saxlanılmalı, sakinlərə və turistlərə nümunəvi xidmət göstərilməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, tədbirdə iştirak edən qadınları və onların timsalında muxtar respublika qadınlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etmişdir.

Xidmət və istehsal sahələrinə baxış zamanı bildirilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada gündəlik istehsal gücü 500 kiloqram olan dondurma, istehsal gücü saatda 800 çörək olan milli çörək və istehsal gücü saatda 80 kiloqram

Ardı 2-ci səhifədə

olan unlu-qənnadı sahələri, 40 və 96 yerlik iki kafe, 114 yerlik restoran, uşaqlar üçün zal, ixtisaslaşmış mağaza, mebel salonu, 2 ədəd soyuducu kamera, xammal və hazır məhsul anbarları, iş və xidməti otaqlar vardır. Binada lift quraşdırılmış, təhlükəsizlik tədbirləri görülmüşdür. İstehsal və xidmət sahəsində 62 nəfər işlə təmin olunmuşdur.

İstehsal sahələrində bazarın tələbatına uyğun keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal olunur, təmizliyə və gigiyenik qaydalara tam əməl olunur. Məhsullar "Danyeri" əmtəə nişanı ilə muxtar respublikadakı ticarət mərkəzlərində satışa çıxarılır. Mağazada ərzaq məhsullarının və gündəlik tələbat mallarının satışı həyata keçirilir. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, xarici ölkələrdə istehsal edilən və mənşə sertifikatı olan məhsullar da satışa çıxarılır. Xidmət sahələrində insanların rahatlığı tam nəzərə alınmışdır. Mebel salonunda isə muxtar respublikada və başqa ölkələrdə istehsal olunan müxtəlif növ keyfiyyətli mebel dəstləri alıcılara təklif olunur.

Ali Məclisin Sədri muxtar respublikada daxili bazarın tənzimlənməsi sahəsində tədbirlərin görüldüyünü diqqətə çatdırmış, istehsal və xidmət sahəsində keyfiyyətə diqqət yetirilməsinin və tələbata uyğun məhsul istehsal olunmasının vacibliyini bildirmişdir.

Naxçıvan şəhərində yeni istehsal və xidmət sahəsinin yaradılması, parkın istifadəyə verilməsi sakinlərlə yanaşı, turistlərin də istirahətinin mənalı təşkilinə imkan verəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana:

## *"Naxçıvan zəngin tarixi keçmişə və mədəniyyətə malikdir"*

***Xəbər verdiyimiz kimi, Hindistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana martın 5-dən 8-dək Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər çərçivəsində diplomat muxtar respublikanın təhsil, mədəniyyət, səhiyyə və istehsal müəssisələri ilə tanış olub, bir sıra görüşlər keçirib. Səfərin sonuncu günü isə hindistanlı səfir Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət edib, şəhərin "Sərşəhər" küçəsində yerləşən kəhrizə baxıb. Naxçıvan Muxtar Respublikasından xoş ovqatla ayrılan səfir Sanjay Rana səfərlə bağlı təəssüratlarını "Şərq qapısı" qəzeti ilə bölüşüb:***

***– İlk olaraq Naxçıvana səfərinizin məqsədini bilmək istərdik.***

– Naxçıvan Muxtar Respublikasına səfərimin məqsədi bu regionla yaxından tanış olmaq idi və bu tanışlıq mənə çox xoş təsir bağışladı. Burada olduğum müddətdə muxtar respublikanın təhsil, mədəniyyət, səhiyyə müəssisələrini gəzdik, muzeyləri ziyarət etdik. Mən muxtar respublikada bir sıra yüksək səviyyəli görüşlərdə oldum, əməkdaşlığımızın gələcək inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi apardıq. Bu görüşlər maraqlı keçdi və Hindistan ilə Azərbaycan, həmçinin Naxçıvan arasındakı əlaqələr üçün yeni ideyalar ortaya çıxdı. Düşünürəm ki, həmin yeni ideyalar bundan sonrakı əməkdaşlığımızda əhəmiyyətli rol oynayacaq.



***– Səfər təəssüratlarınızı necə ifadə edərdiniz?***

– Qeyd etdiyim kimi, muxtar respublika ilə tanışlıq məndə xoş təəssüratlar yaratdı. Şahidi oldum ki, Naxçıvan zəngin tarixi keçmişə və mədəniyyətə malikdir. Səfər proqramı yaxşı təşkil olunduğu üçün qısa vaxt ərzində imkan tapıb bir çox yerlərdə olduq. Eyni zamanda bu diyarla tanışlıq bir daha göstərdi ki, xalqlarımızın adət-ənənələri, mədəniyyətləri arasında oxşarlıqlar var. Hətta mən düşünürəm ki, gələcəkdə bizim mədəniyyət sahəsində çalışan mütəxəssislərimizi bura dəvət edə bilərik.



***– Qeyd etdiyiniz kimi muxtar respublikaya səfəriniz çərçivəsində burada bir çox görüşlər keçirdiniz və müxtəlif sahələr üzrə fikir mübadiləsi aparmaq imkanınız oldu. Necə düşünürsünüz, Naxçıvan Muxtar Respublikası ilə hansı sahələrdə əməkdaşlıq daha perspektivlidir?***

– Hesab edirəm ki, iqtisadi sahələrdə geniş əməkdaşlıq imkanlarımız vardır. Çünki Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı yaxşı inkişaf edib, bu sahədə yaxşı əlaqələr qura bilərik. Digər tərəfdən, mən su və kanalizasiya, həmçinin irriqasiya layihələri ilə bağlı iş görəcəyimizi düşünürəm. İnanıram ki, mənim bura ikinci səfərimdə bu sahənin mütəxəssisləri də yanımızda olacaq. Bundan əlavə, mədəniyyət, turizm və təhsil sahələri üzrə də faydalı əməkdaşlıq əlaqələri quracağımıza inanıram.

***– Sağ olun.***

**✍ Səbuhi HƏSƏNOV**



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir.*

*10 mart Milli Teatr Günüdür*

## Naxçıvan teatrı zəngin ənənələrə malikdir

1873-cü ilin mart ayında Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" əsərinin səhnələşdirilməsi ilə əsası qoyulmuş Azərbaycan teatrı çətin və şərəfli inkişaf yolu keçmişdir. Bundan 10 il sonra – 1883-cü il mayın 11-də dövrünün mütərəqqi ziyalısı olan Hacı Nəcəf Zeynalovun Naxçıvanın məşhur "Zaviyyə" məhəlləsindəki evində Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası səhnələşdirilməklə Naxçıvan teatrının əsası qoyulmuş, ötən dövrdə teatr şərəfli inkişaf yolu keçmişdir.

Naxçıvan teatrının salnaməsini vərəqlədikcə fədakar və mübariz insanların xatirəsi gözlərimiz önündə canlanır. Bu məfkurə və əməl dostlarının başında duranlar – Eynəli bəy Sultanov və Cəlil Məmmədquluzadə dram əsərləri yazmaqla bərabər, həm də rejissorluq edir, teatr təşkilatçılığı ilə məşğul olur, teatrın inkişafı üçün zamanın sərt sınaqlarına qatlaşırdılar.

XIX əsrin əvvəllərində Bakıdan Naxçıvana gələn Azərbaycan teatrının qüdrətli sənətkarlarının Naxçıvan teatrının aktyorları ilə birlikdə tamaşa göstərməsi, öz həmkarlarına mənəvi dəstək verməsi, onların peşəkarlıq səviyyəsinin yüksəlməsinə təsir etməsi, dərin məzmunlu əsərlərin tamaşaya qoyulması ilə yanaşı, həm də milli teatr tariximizdə əməl və məfkurə dostluğunun, sənət fədailiyinin ən gözəl nümunələri idi. Bütün bunlar Naxçıvan teatrına öz repertuarını zənginləşdirmək imkanı qazandırmışdı. Naxçıvan teatrı Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı, İslam Səfərli kimi sənətkarların əsərlərinə müraciət edərək püxtələşmişdir. Həmçinin teatrın kollektivi müxtəlif illərdə Vilyam Şekspir, Lope de Veqa, Qothold Lessinq, Henrik İbsen, Əziz Nesin, Nazim Hikmət, Çingiz Aytmatovun da əsərlərini tamaşaya qoymuş, teatrsevərləri dünya klassiklərinin yaradıcılığı ilə tanış etmişdir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Naxçıvan teatrı köklü, əsaslı bir teatrdır. Yaxın Şərqin ən qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı böyük yaradıcılıq yolu keçmişdir. Teatr bu ənənəni bu gün də qoruyub saxlayır".***

Görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə milli teatrımız əsl inkişaf və intibaha qovuşmuş, maddi-texniki bazası gücləndirilmiş, peşəkar aktyor və rejissor kollektivi formalaşmışdır. Müstəqillik illərində isə ümummilli liderimizin rəhbərliyi ilə səhnə sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, bu sahədə böyük uğurlar qazanılmışdır. Bu dövrdən başlayaraq teatrlara diqqət və qayğı artırılmış, yazıçı, aktyor və rejissorların yaradıcılıq şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, onların əməyi qiymətləndirilmişdir. Teatr kollektivlərinin əməkhaqları artırılmış, aktyorların, rejissorların, dramaturqların yubileyləri geniş qeyd edilmiş, Azərbaycan teatrının beynəlxalq əlaqələri genişlənmişdir.

Teatrlara diqqət və qayğı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər bu sahədə mühüm islahatlar həyata keçirilmiş, teatr binaları yenidən qurulmuşdur. 2006-cı ildə qəbul olunmuş "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamı, 2009-cu ildə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı" milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm dövlət sənədləridir.

Bu gün Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, teatr binaları yenidən qurulmuş və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Hazırda muxtar respublikada fəaliyyət göstərən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Dünya ədəbi fikrina qüvvətli təsir göstərən ölməz ədib və mütəfəkkirlərin zəngin yaradıcılıq ənənələri ilə sıx bağlı olan Naxçıvan teatrı daim yeniliyə can atmış, mədəni inkişafın carçısı olmuş, geniş maarifçilik işi görmüş, cəhalət və yeniliyi qamçılayaraq muxtar respublikada mədəni-ictimai fikrin formalaşmasına öz təsirini göstərmişdir".***




Son illər Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənmiş, kollektiv milli dəyərlərimizin peşəkar təbliğatçısına çevrilmişdir. Naxçıvan teatrı Türkiyə Respublikasının Ankara, İstanbul, Bursa, Trabzon, Qars, Ərzurum, İqdır, Dənizli, Tarsus, İran İslam Respublikasının Təbriz, Maku, Urmiya şəhərlərində qastrol səfərlərində olmuş, göstərdiyi tamaşalarla dost və qonşu ölkələrin teatrsevərlərinin rəğbətini qazanmışdır. Naxçıvan teatrının Bakıda və Azərbaycanın digər rayonlarında göstərdiyi tamaşalar da maraqla qarşılanmış, istedadlı aktyorlarımız geniş tamaşaçı sevgisi qazanmışlar. Teatrımız repertuar zənginliyini daim diqqət mərkəzində saxlayır, klassik və çağdaş dramaturgiyamızın dəyərli nümunələrindən, dünya klassiklərinin əsərlərindən tamaşalar hazırlayır.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının son 20 ildə tamaşaya qoyduğu dramlar üslub, struktur və janr müxtəlifliyi ilə seçilir. "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Hökmdar və qızı", "Nadir şah", "Qönçəbəyimin nəğməsi", "Mirzə Cəlil taleyi", "Yəhya bəy Dilqəm", "Araz sahilində doğan günəş", "Ağa Məhəmməd şah Qacar", "Mirzə Fətəli", "Əlincə qalası", "Koroğlunun Çənlibelə qayıdışı", "Qurtuluş dastanı", "Ah Paris, Paris!..", "Mənim ərim dəlidir", "Dəlixanadan dəli qaçıb", "Kuklalar evi", "Arılar arasında" kimi üslub, struktur, janr müxtəlifliyi ilə seçilən tamaşalar teatrın axtarışlarının düzgün istiqamətdə inkişaf etdiyini göstərir.

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı da fəaliyyəti boyunca yüksək qayğı ilə əhatə olunmuşdur. 2004-cü ildə müasir bina ilə təmin olunan kukla teatrının qonşu Türkiyə və İran İslam respublikalarına səfərləri beynəlxalq mədəni əlaqələrin qurulmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı isə müxtəlif illərdə hazırladığı tamaşalarla balacaların qəlbinə yol tapmağı bacarmışdır. Həmçinin muxtar respublikanın şəhər və rayonlarında xalq teatrları da uğurla fəaliyyət göstərir. Ötən il xalq teatrlarının "Kamança", "Ac həriflər", "Xəcalət", "Şöhrət ardınca", "Ezop", "Ər və arvad", "Unuda bilmirəm", "Qəşəmin yuxusu", "Dələduz" kimi tamaşaları ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Son illər Naxçıvan teatrının tədqiqi ilə bağlı bir sıra uğurlu işlər həyata keçirilmiş, monoqrafiya və kitablar nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" bu baxımdan yüksək qiymətə layiqdir. Kitabda ilk dəfə olaraq Naxçıvan teatrı ilə bağlı çoxsaylı mühüm elmi əhəmiyyətə malik sənədlər, fotoşəkillər və digər məlumatlar öz əksini tapmışdır.

Teatr o zaman davamlı inkişaf yolunda olar ki, orada gənc aktyorlar nəsli yetişsin. Muxtar respublikada bu sahədə də mühüm addımlar atılmış, Naxçıvan Dövlət Universitetində Aktyorluq sənəti ixtisası yaradılmışdır. Bunun nəticəsidir ki, hər il istər dövlət, istərsə də xalq teatrlarının heyətinə onlarla gənc qatılır, yaratdıqları obrazlarla teatrsevərlərin qəlbinə yol tapırlar.

Muxtar respublikada teatr sənətinə könül verənlərin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlara layiq görülmüşlər.

*Teatrlarımız bu gün də ictimai şüurun aparıcı qüvvəsi kimi ön cəbhədədir. Milli dəyərləri qorumaq və təbliğ etmək, tariximizi yaşatmaq məramını teatrlarımız bundan sonra da uğurla davam etdirəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi üçün lazımi iş şəraiti yaradılıb

***Hər il mart ayının 10-u Azərbaycan Respublikasında “Qızıl Aypara Günü” kimi qeyd olunur.***

Dünyada humanitar və xeyriyyəçilik dəyərlərini özündə təcəssüm etdirən və bu istiqamətdə fəaliyyət göstərən müxtəlif təsisatlar mövcuddur. Bunların arasında Qızıl Aypara Cəmiyyətinin özünəməxsus yeri var.

Azərbaycanda Qızıl Aypara Cəmiyyəti 1920-ci il martın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri, general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü ilə təsis edilmişdir. Lakin 1920-ci ilin aprelində Azərbaycanda sovet hökuməti qurulduqdan sonra Qızıl Aypara Cəmiyyətinin də fəaliyyəti dayandırılmışdır. 1923-cü ildə yenidən yaradılan qurum 1991-ci ilə kimi SSRİ Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətinin tərkibində fəaliyyətini davam etdirmiş, özünəməxsus tarixi yol keçərək ölkəmizdə xeyirxah ideyaların həyata keçirilməsinə mühüm töhfələr vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinə də diqqət və qayğı artırılmışdır. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə cəmiyyət ölkəmizdə rəsmi humanitar təşkilat kimi tanınmış, 1995-ci il noyabrın 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam bərabərhüquqlu və daimi üzvü qəbul edilmişdir. Qeyri-hökumət təşkilatı olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti dövlətin qayğısı əhatəsində fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 31 yanvar tarixli “Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında”, 2007-ci il 22 may tarixli “Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışan işçilərin əməkhaqlarının dövlət büdcəsindən maliyyələşdirilməsi haqqında”, 2008-ci il 7 aprel tarixli “Qızıl Aypara Gününün təsis edilməsi haqqında” sərəncamları cəmiyyətin fəaliyyətinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının bariz nümunəsidir. Sərəncamlara əsasən cəmiyyətin maddi-texniki bazası yaxşılaşdırılmış, icra hakimiyyəti və özünüidarəetmə orqanlarının cəmiyyətin yerli təşkilatlarının sosial, tibbi sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik etməsi təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də dövlətin qayğısından lazımınca bəhrələnir. 2008-ci il yanvarın 10-da komitə yeni inzibati bina ilə təmin olunmuş, maddi-texniki baza yaxşılaşdırılmış, xidməti və yük avtomobilləri verilmiş, əməkdaşların səmərəli fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır. Son illər kollektivin sosial təminatının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 1 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 25 faiz, 2010-cu il 1 sentyabr və 2011-ci il 1 dekabr tarixli sərəncamlara əsasən isə 10 faiz artırılmışdır.

Tərkibində 1 şəhər və 7 rayon bölməsini birləşdirən komitənin bu gün 580 ilk təşkilatı və 36 mindən artıq üzvü vardır. Komitədə işlər 4 şöbə üzrə həyata keçirilir. Belə ki, Axtarış xidməti şöbəsi Stalin repressiyası, İkinci Dünya müharibəsi və miqrasiya zamanı itkin düşənlərin axtarışını, qaçqın və məcburi köçkünlər üçün lazımi sənədlərin bərpası işlərini həyata keçirir. Komitənin Gənclər və könüllülərlə iş şöbəsi gələcəyimiz olan gənclərin sağlamlığının təmin edilməsi məqsədilə idman, eləcə də gigiyena, təmizlik, təbiətin mühafizəsi kimi tədbirlərin təşkili ilə məşğul olur. Yeniyetmə və gənclərə fövqəladə hallar zamanı görüləcək təxirəsalınmaz tədbirlərə, ilk tibbi yardımın göstərilməsinə dair məlumatların verilməsi şöbənin səlahiyyətləri sırasına daxildir.

Təşkilati iş şöbəsi muxtar respublikada fəaliyyət göstərən idarə və müəssisələrdə komitənin ilk təşkilatlarını yaradır və Qızıl Aypara hərəkatı haqqında seminar və treninqlər təşkil edir. Şöbə həmçinin komitənin şəhər və rayon bölmələrinin işinə nəzarəti də həyata keçirir. Əhali arasında fövqəladə hallarla bağlı maarifləndirici tədbirlərin təşkili də uğurla yerinə yetirilir. 2017-ci ildə komitəyə fövqəladə hallara hazırlıq çərçivəsində 30 ədəd çadır gətirilmişdir.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, humanizm və xeyirxahlıq ideyalarının qoruyucusu və təşkilatçısı kimi fəaliyyətini artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi***

## İranın Qərbi Azərbaycan Vilayətində istehsal edilən ərzaq məhsulları və əl işlərinin sərgi-satışı əhali tərəfindən maraqla qarşılanıb

### *Naxçıvan şəhərindəki Mərkəzi bazardan reportaj*

***Muxtar respublikamız sosial-iqtisadi inkişafının yeni mərhələsindədir. Bu inkişafda başlıca amillərdən biri sahibkarlara yaradılan şərait, onlara göstərilən dəstək və qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsidir. Artıq naxçıvanlı sahibkarların öz məhsullarını bir neçə ildir ki, xarici bazarlara çıxarmaları təmin edilib. Qarşılıqlı olaraq xarici ölkələrdən də muxtar respublikaya müxtəlif emal və istehsal məhsullarının gətirilməsi diqqətdə saxlanılıb. Naxçıvan şəhərindəki Mərkəzi bazarda İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətində istehsal edilən ərzaq məhsulları və əl işlərinin sərgi-satışının təşkil edilməsi də bunun nəticəsidir.***





Məlumat üçün bildirək ki, Qərbi Azərbaycan Vilayəti İran İslam Respublikasının inkişaf etmiş böyük bölgələrindən biridir. Vilayətin mərkəzi qədim yaşayış məntəqələrindən biri olan Urmiya şəhəridir.

Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında mövcud olan bir sıra sahələr üzrə əlaqələr sırasında ticarət əlaqələri xüsusi yer tutur. 2011-ci ilin payızında Urmiya şəhərində 5 gün müddətində Naxçıvan Muxtar Respublikasının ilk ticarət və sənaye sərgisi təşkil edilib. Qərbi Azərbaycan Vilayətinin isə muxtar respublikada ilk ticarət və sənaye sərgisi 2015-ci ilin 14-17 avqust tarixlərində keçirilib.

Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan növbəti sərgi-satış naxçıvanlılar tərəfindən maraqla qarşılanıb.

Dünən biz də həmin sərgi-satışda olduq. İranlı sahibkarlarla görüşdük. Urmiya şəhərinin “Dalanper” istehsal müəssisəsindən sərgi-satışa tomat, yuyucu toz, qənd və digər məhsullar gətirmiş Seyid Haşim Bərzənci və Abbas Piri ilk müsahiblərimiz oldular. Burada onlar üçün yaradılmış şəraitdən xeyli razılıq etdilər. Seyid Haşim Bərzənci bildirdi ki, neçə illərdir, sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Naxçıvana birinci dəfədir gəlir. Burada yüksək alıcılıq mədəniyyəti görür. Naxçıvanda həm də naxçıvanlıların səmimiyyətinin, qonaqpərvərliyinin şahidi olub. Gətirdiyi malları satıb qurtarmaq üzrədir. Onun ortağı Abbas Piri deyir ki, sərgi-satışı başa çatdıqdan sonra Qərbi Azərbaycan Vilayətinə Naxçıvanda istehsal olunmuş məhsullar aparacaqlar. Çünki həmin məhsullar öz keyfiyyəti ilə seçilir.

Sonda hər iki müsahibim belə sərgi-satışların gələcəkdə də davam etdiriləcəyi arzusunda olduqlarını bildirdilər, təşkilatçılara minnətdarlıqlarını ifadə etdilər.

Sərgi-satışda “Kursar” şirkətinin məhsulları da həvəslə alınırdı. Şirkətin rəhbəri Hacı Həsən Məhəmmədi ilə söhbət zamanı bildirdi ki, birinci dəfədir, Naxçıvana gəlib. Bu qədim diyar haqqında çox eşidib. Bura gələndən sonra deyilənlərin həqiqət olduğunu öz gözləri ilə görüb. Naxçıvanlılar istiqanlıdırlar, səmimidirlər. Naxçıvanlıların keyfiyyətli məhsula qiymət vermək bacarıqlarından danışan sahibkar onu da bildirdi ki, burada yüksək təşkilatçılıq da sahibkarlara xoş təsir bağışlayıb. Bir neçə naxçıvanlı sahibkarla işbirliyi qurmaq barədə razılığa gəliblər. Arzu edirlər ki, gələcəkdə də belə sərgi-satışlar təşkil olunsun. Naxçıvanlıların istehsal etdikləri məhsullar Urmiyada, onların məhsulları isə Naxçıvanda satılsın, ticarət əlaqələri daha da genişləndirilsin.

Səlmas şəhərindən gəlmiş sahibkar Məhəmməd Əlizadə öz şirkətinin istehsal etdiyi meyvə-tərəvəz məhsulları ilə naxçıvanlıların qonağıdır. Deyir ki, bundan sonra Naxçıvana tez-tez gələcək. Çünki burada yaradılan şərait yüksək səviyyədədir. O, burada olarkən Naxçıvanda sahibkarlığın inkişafına dövlətin xüsusi qayğı göstərdiyini görüb: “Naxçıvanlı sahibkarlar bununla qürur duya bilərlər. Əgər dövlət öz sahibkarına belə şərait yaradırsa, bu şəraitdə yüksəkkeyfiyyətli məhsul istehsal etmək heç də çətin deyil. Naxçıvan şəhəri də bizdə çox gözəl təəssürat yaratdı, şəhərin gözəlliyi qəlbimizi oxşadı. Naxçıvanlılar öz şəhərlərini ürəkdən sevirlər ki, onu belə təmiz saxlayırlar. Həmişə belə olmağını arzulayırıq”.

Sərgi-satışa sənaye məhsulları da gətirilib. Urmiyanın “İttihadiyyə” əl işləri istehsalı müəssisəsinin rəhbəri Gülnaz Qərəni deyir ki, buraya çıraqlar, ağacdan düzəldilmiş məmulatlar, həmçinin kiçikölçülü xalçaçılıq məmulatları, hədiyyələr, çantalar, mətbəx avadanlıqları gətirib. Xüsusi zövqlə işlənmiş bu məmulatlara naxçıvanlıların böyük maraq göstərməsini təbii sayan sahibkar qadın onu da diqqətimizə çatdırır ki, bir neçə gün ərzində naxçıvanlıların sənətə yüksək qiymət verdiklərinin şahidi olub.

Sərgi-satışda onlara yüksək səviyyədə qayğı göstərildiyini dilə gətirən qonaqlar vurğuladılar ki, burada heç bir çətinliklə qarşılaşmayıblar. Onlar razılıqlarını ifadə etdilər, göstərilən diqqətə, səmimi münasibətə görə minnətdarlıqlarını bildirdilər.

Mərkəzi bazarda təşkil edilən sərgi-satışda alış-veriş edənlərlə də görüşürük. Şəhər sakini Namiq Fərzəliyev deyir ki, bu günlərdə insanları düşündürən başlıca məsələ Novruz bayramını layiqincə keçirmək üçün zəruri olan məhsulları əldə etməkdir. Düzdür, bu sahədə vaxtilə mövcud olan problemlər illərdir ki, aradan qaldırılıb, dükan-bazarlarımızda bolluqdur. Xüsusən də dadlı və tamlı, özümüzün istehsal etdiyimiz yerli məhsullarla. Bununla yanaşı, dövlətimiz bayram süfrələrinin daha zəngin, daha rəngarəng olması üçün digər məqsədyönlü tədbirlər də həyata keçirir. Belə tədbirlərdən biri də qonşu və qardaş İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətində istehsal edilmiş ərzaq və sənaye məhsullarının Naxçıvan şəhərində fəaliyyət göstərən Mərkəzi bazarda birhəftəlik sərgi-satışının təşkil edilməsidir. Bu, çox gözəl haldır. Bu, bizim qonşu İran İslam Respublikası ilə ölkəmiz arasında yaradılmış dostluq əlaqələrinin yüksək səviyyədə olmasının ifadəsidir.

Məlumat üçün onu da bildirək ki, martın 7-dən başlayaraq İran İslam Respublikasının Urmiya şəhərində beynəlxalq sərgi keçirilir. Sərgidə Naxçıvan Muxtar Respublikasının iş adamları da iştirak edirlər. Sərgidə Naxçıvan Biznes Mərkəzi ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən 15 şirkətin nümayəndə heyəti iştirak edir. Hər iki ölkə sahibkarları üçün körpü rolunu oynayan və iqtisadi əlaqələrin genişlənməsinə xidmət edən sərgidə qida sənayesi məhsulları, dərman preparatları, yüngül sənaye məhsulları, mebel və kənd təsərrüfatı məhsulları nümayiş etdirilir. Ümumilikdə, muxtar respublikanın 15 şirkətinin 36 növdə və 226 çeşiddə məhsulu və naxçıvanlı sənətkarlar tərəfindən hazırlanan 62 əl işləri sənayesi məhsulu sərgiyə gələnlərin böyük marağına səbəb olub.

**Muxtar MƏMMƏDOV**

***Naxçıvan Biznes Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı müəssisələrin sahibkarları üçün ixracda təşviqlərin verilməsi, “Made in Azerbaijan” brendinin mahiyyəti və onun tətbiqi mexanizmləri barədə seminar təşkil olunub.***

## “Made in Azerbaijan” brendinin tətbiqi mexanizmləri barədə seminar təşkil olunub



Seminar Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun dəstəyi ilə keçirilib. Seminarda fondun vitse-prezidenti Yusif Abdullayev bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 1 mart 2016-cı il tarixli “Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı, ölkə rəhbərinin 2016-cı il 5 oktyabr tarixli Fərmanı ilə təsdiq edilən “Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası” sahibkarların xaricə mal ixracını asanlaşdırmaqla yanaşı, onlara dövlət tərəfindən hərtərəfli təminat yaradıb.

Qeyd olunub ki, bu sahədə muxtar respublikada da ardıcıl tədbirlər həyata keçirilir, sahibkarlar üçün əlverişli şərait yaradılır. Sahibkarlara yaradılan bu şəraitin nəticəsidir ki, muxtar respublikadan xarici ölkələrə məhsul ixracı genişlənir, şirkətlər öz məhsullarını beynəlxalq arenada nümayiş etdirirlər.

Vurğulanıb ki, bugünkü seminarın da əsas məqsədi xaricə mal ixrac edən sahibkarlara qeyri-neft məhsullarının ixracının stimullaşdırılması və təşviqi üçün dəstək mexanizmləri və “Made in Azerbaijan” brendinin mexanizmləri ilə bağlı yenilikləri çatdırmaqdır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun İxracın təşviqi departamentinin direktoru Fuad Cəfərov qeyri-neft məhsullarının ixracatçılarına ixrac təşviqinin verilməsi proseduru, müraciət qaydaları və tələb olunan sənədlər barədə ətraflı söhbət açıb. Seminarda “Made in Azerbaijan” brendinin mexanizmlərinin mahiyyəti və tətbiqi haqqında məsələlər də ətraflı müzakirə edilib.

Naxçıvan Muxtar Respublikasında ixracda təşviqlərin tətbiq edilməsi, “Made in Azerbaijan” brendinin dəstək mexanizmlərindən istifadə imkanları ilə bağlı görülən işlər və perspektivlər barədə iştirakçılara məlumat verilib.

Seminarda sahibkarların mövzu ilə bağlı sualları cavablandırılıb, təkliflər dinlənilib.

**Kərəm HƏSƏNOV**

## IX siniflər üzrə buraxılış imtahanlarının aparılması qaydalarına dəyişikliklər edilib

### *Cari ildə həmin imtahanlar bu qaydalar əsasında aparılacaq*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumata görə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli qərarı ilə "Ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması qaydaları" təsdiq edilib. Dəyişikliklərə əsasən, cari tədris ilində IX siniflər üzrə buraxılış imtahanları 2 mərhələdə keçiriləcək.***

İmtahanın I mərhələsi 12 mart 2017-ci il tarixdə saat $11^{00}$-da başlayacaq. Şagirdlərə Azərbaycan dili üzrə 20 (10 açıq və 10 qapalı test), riyaziyyat fənni üzrə 10 (açıq test) olmaqla, 30 sual təqdim ediləcək. Sualların cavablandırılması üçün şagirdlərə 2 saat, esse (inşa) yazmaq istəyən şagirdlər üçün isə əlavə 30 dəqiqə vaxt veriləcək. Saat $9^{00}$-dan etibarən şagirdlərin imtahanın keçiriləcəyi binalara buraxılışı başlayacaq.

Məlumatda deyilir ki, Naxçıvan Muxtar Respublikasında imtahanların şəffaf və obyektiv keçirilməsi üçün Naxçıvan şəhəri, Şərur, Babək və Ordubad rayonlarının hər birində 2, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonlarının hər birində 1 olmaqla, 12 imtahan mərkəzi yaradılıb. Bu mərkəzlərdə, ümumilikdə, 3707 şagird imtahan verəcək. İmtahan mərkəzlərində hazırlıq işləri yekunlaşdırılıb, əvvəlcədən verilən qrafik əsasında mərkəzlər üzrə imtahan otaqları hazırlanıb və nömrələnib.

Naxçıvan şəhəri üzrə imtahan mərkəzləri 7 və 14 nömrəli tam orta məktəblərdə təşkil olunub. Bu məktəblərdə müvafiq olaraq 480 və 573 şagird imtahan verəcək.

Şərur rayonunda IX sinif şagirdləri öz bilik və bacarıqlarını Şərur şəhər 1 nömrəli və Zeyvə kənd tam orta məktəblərində sınayacaqlar. Şərur şəhərindəki 1 nömrəli tam orta məktəbdə keçiriləcək imtahanda 398, Zeyvə kənd tam orta məktəbində keçiriləcək imtahanda 345 şagird iştirak edəcək.

Babək rayonu üzrə yaradılmış imtahan mərkəzləri Babək qəsəbə 1 nömrəli və Şıxmahmud kənd tam orta məktəblərindədir. Qəsəbə mərkəzindəki məktəbdə 365, Şıxmahmud kənd tam orta məktəbində 233 şagirdin imtahan verməsi nəzərdə tutulub.

Ordubad rayonu üzrə imtahan mərkəzlərinin biri Ordubad şəhər internat (305 şagird), digəri Sabirkənd tam orta məktəblərindədir (120 şagird).

Culfa rayonu üzrə 414 şagird Culfa şəhər 3 nömrəli, Şahbuz rayonu üzrə 159 şagird Şahbuz şəhər 1 nömrəli, Kəngərli rayonu üzrə 226 şagird Qıvraq qəsəbə, Sədərək rayonu üzrə 89 şagird Heydərabad qəsəbə tam orta məktəblərində imtahan verəcəklər.

Məlumatda o da bildirilir ki, ümumtəhsil məktəblərində imtahana hazırlıq işləri çərçivəsində imtahan guşələri yaradılıb və şagirdlər yeniliklərlə tanış ediliblər. Hər bir şagirdin imtahana buraxılması üçün Dövlət İmtahan Mərkəzinin "Şagird-məzun" sistemində buraxılış vərəqələri çap ediləcək şagirdlərə təqdim olunub. Bundan əlavə, ümumtəhsil məktəblərinin direktorları tərəfindən hər bir şagird üçün məktəbdə oxuduqlarına dair şəkilli arayışlar hazırlanıb.

Şagirdlər imtahana gedərkən şəxsiyyət vəsiqələrini, məktəb tərəfindən verilmiş şəkilli arayışları və imtahana buraxılış vərəqələrini özləri ilə aparmalıdırlar. İmtahana mobil telefon, digər rabitə vasitələri, kalkulyator və elektron cihazlar, konspekt, lüğət, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək qəti qadağandır.

Buraxılış imtahanlarının II mərhələsi əvvəlcədən müəyyən olunmuş vaxtda keçiriləcək. II mərhələdə digər məzmun standartları üzrə bilik və bacarıqları yoxlamaq məqsədilə hər bir fənn üzrə 30 qapalı, ümumilikdə, 60 test tapşırığı təqdim ediləcək. Bundan əlavə, şagirdlər birinci mərhələdə təqdim edilmiş mövzu üzrə könüllülük prinsipi əsasında esse (inşa) yazacaqlar.

**Xəbərlər şöbəsi**

---

*Aşıq sənətinin və musiqisinin tarixi çox qədim və zəngindir. Bu gün muxtar respublikamızda da aşıq sənətinin inkişafı və təbliği ilə bağlı bir sıra tədbirlər həyata keçirilir, musiqi təhsili ocaqlarında saz musiqi alətinin gənclərə öyrədilməsi istiqamətində mühüm işlər görülür.*

*Gənc istedadlar*

## Naxçıvanlı gənc saz ifaçısı *"Köklə sazı"* aşıq müsabiqəsinin qaliblərindəndir



Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində Saz ixtisası tədris olunur. Bu dərslərdə saz sənətinə yiyələnən gənc ifaçıların təcrübəli, yüksəkixtisaslı kadrlar kimi yetişməsinə diqqət yetirilir. Musiqi məktəblərində Saz ixtisası üzrə təhsil alan şagirdlərə aşıq havaları öyrədilir, onlar muxtar respublika üzrə keçirilən müsabiqələrdə, konsertlərdə fəal iştirak edirlər. Bunun nəticəsidir ki, gənc nəslin nümayəndələri qədim musiqi alətimizdə ifa etməyə maraq göstərirlər.

Bu gün muxtar respublikamızda qədim musiqi alətlərinə könüldən bağlanan gənc saz ifaçıları az deyil. Gələcəyinə ümidlə baxdığımız saz ifaçılarından biri də Elnur Həsənlidir. Gənc saz ifaçısı 2000-ci il martın 10-da Şahbuz rayonunun füsunkar təbiətə malik olan Kükü kəndində dünyaya göz açıb. O, 2015-ci ildə Naxçıvan şəhərindəki Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbinin Saz ixtisası kursunu bitirib. Müəllimləri İllarə Vəliyeva və İxtiyar Seyidov onun ifaçılıq qabiliyyətinə yiyələnməsi üçün səylərini əsirgəməyiblər. Saz ixtisası üzrə əla qiymətlə təhsil alan Elnur məktəbi bitirdikdən sonra da ruh oxşayan bu musiqi alətindən ayrılmayıb, müxtəlif tədbirlərdə "Baş divani", "Dilqəmi", "Baş Sarıtel", "Orta Sarıtel", "Cəlili", "Çoban bayatı", "Misri", "Ruhani", "Naxçıvani" və başqa ənənəvi saz havalarını özünəməxsus şəkildə ifa edib.

Elnurla "Lider" televiziyasında yayımlanan "Köklə sazı" adlı aşıq müsabiqəsindən sonra görüşdüm. Onun sözlərinə görə, aparıcısı Lalə Əlimuxtarova olan verilişdə münsiflər heyətinə tanınmış aşıqlar dəvət edilir. Müsabiqənin əsas məqsədi aşıq sənətinin inkişafına dəstək verməkdir. Saatlı, Ucar, Gədəbəy, Göyçay, Qazax və başqa rayonlardan aşıq və saz ifaçılarının qatıldığı bu müsabiqədə qədim diyarımızı öz təşəbbüsü ilə Elnur təmsil edib.

Su çərşənbəsindən bir gün sonra "Köklə sazı" aşıq müsabiqəsi başa çatıb. Onu da deyək ki, müsabiqə mərhələlərlə keçdiyindən uzun vaxt aparıb. Elnurun uğurlu çıxışları onun "Köklə sazı" aşıq müsabiqəsinin final mərhələsində də iştirak etməsi ilə nəticələnib və II yerin diplomu ilə təltif olunub. Təbii ki, ifaçını dəstəkləyənlər də az olmayıb. Elnur ona səs verənlərə minnətdarlığını bildirdi.

Günümüzdə ifa olunan müasir sazın tarixi XVI əsrdən başlayır. İnsan ruhunu oxşayan musiqi aləti kimi sazı həmişə aşıqlarımız və şairlərimiz vəsf ediblər. Azərbaycan aşıq sənətinin dünyanın misilsiz incilərindən biri kimi YUNESKO-nun "Qeyri-Maddi Mədəni İrs Siyahısı"na salınması saz sənətimizin dünya miqyasında tanıdılması deməkdir. Mənəvi dünyamızın əsrlərdən bəri zəngin bir qolu olan saz sənəti qədim olduğu qədər həm də çətin, mürəkkəb, zəriflik və mahirlik tələb edən bir sənətdir. Xalqımızın çoxəsrlik tarixinin və mənəvi dünyasının tərkib hissəsi olan sazı yaşatmaq həm də məsuliyyətli və şərəfli bir işdir. Biz də gənc saz ifaçısı Elnur Naxçıvanlını (müsabiqədə Elnurun soyadı belə səslənib) təbrik edir, ona bu yolda daha böyük uğurlar arzulayırıq.

**Əli RZAYEV**

---

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2017-ci ildə saat $10^{00}$-da hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlaklar haqqında məlumat

| Sıra №-si | Müsadirə edilən əmlakın adı | Ölçü vahidi | Miqdarı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2018.25 | 201.83 |
| 2. | Dördkünc qızıl sikkə | ədəd | 1 | 6500 | 650.0 |
| 3. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 2015 | 201.5 |
| 4. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 4032.60 | 403.26 |
| 5. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2017.60 | 201.76 |
| 6. | Naxışlı qızıl sikkə | ədəd | 1 | 700.98 | 70.10 |
| 7. | "MAURİCE LACROIX" qol saatı | ədəd | 1 | 1700 | 170.00 |
| 8. | "MAURİCE LACROIX" qol saatı | ədəd | 1 | 1400 | 140.00 |
| 9. | "TİSSOT 1853" markalı qol saatı | ədəd | 1 | 1500 | 150.00 |
| 10. | "TİSSOT 1853 AUTOMATİK" markalı qol saatı | ədəd | 1 | 1800 | 180.00 |
| 11. | "LONGİNES" markalı 12 qaşlı qol saatı | ədəd | 1 | 1700 | 170.00 |
| 12. | "Lois Erard AUTOMATİK" markalı qol saatı | ədəd | 1 | 1300 | 130.00 |
| 13. | "VERTU HANDMADE" markalı mobil telefon | ədəd | 1 | 8500 | 850.00 |

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlaklara sifariş vermək üçün Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda alıcı hesab edilən sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 faiz həcmində behi Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər və aşağıdakı sənədlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10 faiz behin hesaba ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti.*

Hərrac 17 mart 2017-ci il tarixdə, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

---

## Aztəminatlı ailələrin rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir

***Son illər dövlətimiz tərəfindən aztəminatlı ailələrin rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.***

Minimum əməkhaqqının, pensiya və müavinətlərin artırılması, eyni zamanda ünvanlı dövlət sosial yardım mexanizminin tətbiqi nəticəsində ailələrin həyat səviyyəsinin yüksəldilməsinə nail olunub. Bununla yanaşı, muxtar respublika iqtisadiyyatının davamlı inkişafı ailələrin sosial problemlərinin həll olunması üçün geniş imkanlar açıb.

Aztəminatlı ailələrlə görüşlərin keçirilməsi də həmin ailələrin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Babək rayonunun Hacıvar kəndində yaşayan aztəminatlı Urmiyevlər və Sirab kəndində yaşayan aztəminatlı Rəhimovlar ailəsinə baş çəkilib. Qeyd olunan təşkilatların əməkdaşları ailələrin yaşayış şəraiti ilə maraqlanıb, ailə üzvlərini tibbi müayinədən keçirib, onlara ərzaq payı və geyim dəstləri veriblər.

Ailələrin üzvləri göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

---

## Qızlar arasında şahmat birinciliyi



Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin qız şagirdləri arasında şahmat üzrə rayon birinciliyi olub.

Əvvəlcə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı İdris Qəhrəmanov və Uşaq-gənclər şahmat məktəbinin direktoru Əli Gülmalıyev çıxış edərək yarış iştirakçılarına uğurlar arzulayıblar.

20-dən çox şagirdin mübarizə apardığı yarış İsveçrə sistemi üzrə keçirilib. Yekun nəticəyə əsasən, Nuray Quluzadə 5 xalla qalib adını qazanıb. Ondan bir xal az toplayan Fidan Quluzadə ikinci, 3,5 xalla Fatimə Yusifli isə üçüncü olub.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

---

***İtmişdir***

Naxçıvan şəhəri, İ.Ələkbərov küçəsi, döngə 2, ev 1-də yaşamış Rzayev Zakir Mustafa oğlunun adına verilmiş 15333 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 196